**Azərbaycan Respublikasının nəqliyyat-yol kompleksinə**
**daxil olan sahələr üzrə 2010-cu ilin yanvar-dekabr ayları ərzində**
**sosial -iqtisadi inkişafın nəticələri haqqında**

# M Ə L U M A T

***Ölkənin iqtisadi və sosial inkişafının makroiqtisadi göstəriciləri***

Ölkənin iqtisadi və sosial həyatında son illər müşahidə olunan sürətli inkişaf 2010-cu ildədə davam etmiş, istehsal və xidmət sahələrində yüksək artım sürəti təmin edilmişdir. İnkişafı xarakterizə edən əsas makro göstərici - **ümum daxili məhsul** istehsalı 5.0 faiz, yaxud müqayisəli qiymətlərlə 1.8 milyard manat artaraq 41.6 milyard manata çatmışdır. Ümumi Daxili Məhsulun əhalinin hər nəfərinə düşən həcmi 4653.3 manat və ya 5797.8 ABŞ dolları təşkil etməklə 3.7 faiz artmışdır.

Ümumi daxili məhsulun formalaşmasında xüsusi rol oynayan sənaye sahəsində 2010-cu ildə 27.4 milyard manatlıq məhsul istehsal olunaraq 2009-cu il ilə müqayisədə 2,6 faiz artmışdır. Sənaye məhsulunun 75,8 faizi mədənçıxartma bölməsində, 19,1 faizi emal bölməsində istehsal olunmuşdur.

Ümumi daxili məhsulun strukturunda 65.5 faiz paya malik olan məhsul istehsalı sahələrində yaradılmış əlavə dəyərin həcmi əvvəlki ilin eyni dövrünə nisbətən 3.8 faiz artmışdır. Bu dövrdə sənayedə 21.9 milyard manatlıq, yaxud ümumi daxili məhsulun 52.6 faizi qədər, kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıqda 2.2 milyard mantlıq (müvafiq olaraq 5.4 faiz), tikintidə 3.1 milyard manatlıq (7.5 faiz) əlavə dəyər yaradılmışdır. ÜDM istehsalının 27.4 faizi xidmət sahələrinin, o cümlədən 6.6 faizi topdan və pərakəndə ticarət, avtomobillərin və motosikletlərin təmiri üzrə xidmətlərin, **6.0 faizi nəqliyyat** və anbar təsərrüfatının, 1.0 faizi mehmanxana və iaşə xidmətləri sahəsinin, 1.9 faizi informasiya və rabitə xidmətlərinin, 11.9 faizi isə sosial və digər xidmət sahələrinin payına düşmüşdür.

ÜDM-in istehsalında **nəqliyyat xidmətlərinin** həcmi küçən ilin müvafiq dövrünə nisbətən 4,3 faiz artmışdır.

**2010-cu ilin yanvar-dekabr aylarında ümumi daxili məhsulun strukturu**




2010-cu ildə ölkənin iqtisadi və sosial sahələrinin inkişafına bütün maliyyə mənbələrindən 9715.2 milyon manat məbləğində investisiyalar yönəldilmişdir.

Əsas kapitala yönəldilmiş vəsaitin 75.2 faizini daxili investisiyalar, 29.8 faizini xarici investisiyalar təşkil etmişdir. Daxili investisiyanın 73.9 faizi dövlət mülkiyyətinə məxsus müəssisə və təşkilatların, 26.1 faizi qeyri-dövlət müəssisələrinin payına düşmüşdür.

Əsas kapitala yönəldillmiş sərmayənin ümumi həcmində müəssisə və təşkilatların vəsaitləri 4930.8 milyon manat ( ümumi investisiyanın 50.8 faizi), bank kreditləri 623.4 milyon manat (6.4 faizi), büdcə vəsaitləri 3181.9 milyon manat (32.8 faizi), büdcədənkənar fondların vəsaitləri 568.0 milyon manat (5.8 faizi), əhalinin şəxsi vəsaitləri 407.1 milyon manat (4,2 faizi), digər vəsaitlər isə 4.0 milyon manat təşkil etmişdir.

**Maliyyə mənbələri üzrə əsas kapitala yönəldilmiş investisiyanın strukturu**
Ümumi həcmdə xüsusi çəkisi, faizlə




2010 -cu ildə əsas kapitala yönəldilmiş bütün investisiyanın 42.5 faizi (4130.9 milyon manatı) sənaye sahələrinin inkişafına, 4.6 faizi (441.9 milyon manatı) kənd təsərrüfatına, 2,4 faizi (237.0 milyon manatı) ticarət və xidmətə, **24.5 faizi (2377.8 milyon manatı) nəqliyyata**, 1,8 faizi (171.5 milyon manatı) rabitəyə, 1.5 faizi (148.6 milyon manatı) tikintiyə, 1,2 faizi (116,2 milyon manatı) təhsilə, 1.7 faizi (160.0 milyon manatı) səhiyyəyə, 9.5 faizi daşınmaz əmlakla bağlı əməliyyatlara (ondan 9.3 faizi mənzil tikintisinə), 3.7 faizi dövlət idarəetməsinə, 3.4 faizi istirahət, əyləncə və incəsənətə, 0.6 faizi inzibati və yardımçı xidmətlərə, 0.2 faizi peşə, elmi və texniki fəaliyyətə)0.5 faizi digər sahələrə sərf edilmişdir.

Əsas kapitala yönəldilmiş ümumi investisiyanın 6767.6 milyon manatı (69.7 faizi) qeyri-neft bölməsinin, 2947.6 milyon manatı (30.30 faizi) neft sektorunun inkişafında istifadə edilmişdir.

Ölkə iqtisadiyyatı üçün prioritet sahələrdən birinə çevrilmiş nəqliyyat sektoru əsas infrastrukturlardan biri olaraq dayanıqlı inkişaf etməkdədir. Əvvəlki illərdə olduğu kimi, 2010-cu ildə də nəqliyyat sektoruna investisiyaların yönəldilməsi, nəqliyyatın hərəkət heyətinin yeniləşməsi, körpülərin tikilməsi, yeni avtomobil yollarının çəkilişi, yenidənqurulması və s. işləri davam etdirilmiş, transmilli layihələrin səmərəli fəaliyyəti sahənin inkişafına öz müsbət təsirini göstərmişdir.

2010-cu ildə nəqliyyat sektorunda fəaliyyət göstərən təsərrüfat subyektləri tərəfindən müəssisələrə və əhaliyə 3,7 milyard manatlıq və ya ötən illə müqayisədə 4,5 faiz çox nəqliyyat

xidmətləri göstərilmişdir. Xidmətlərin 70,1 faizi dəmir yolu, avtomobil və boru kəməri, 8,2 faizi dəniz, 11,2 faizi hava nəqliyyatı, qalan hissəsİ isə köməkçi və əlavə nəqliyyat fəaliyyəti ilə məşğul olan müəssisələr tərəfindən göstərilmişdir.

Müstəqillik illərindən ən yüksək həddə çatmaqda ötən il ərzində 196,3 milyon ton və ya 3,1 faiz çox yük daşınmışdır. Nəqliyyat vasitələri ilə daşınmış yüklərin 50,9 faizi avtomobil 31,8 faizi boru kəməri, 11,3 faizi dəmir yolu, 6,0 faizi dəniz nəqliyyatı vasitəsilə həyata keçirilmişdir.

Son 5 ildə bütün nəqliyyat növləri ilə yük daşınması orta hesabla hər il 8,9 faiz, o cümlədən avtomobil nəqliyyatında 7,5 faiz, boru kəməri nəqliyyatında isə 27,5 faiz çoxalmışdır.

**2005-2010-cu illərdə yük daşınması və yük dövriyyəsinin dinamikası**

| **İllər** | **Yük daşınması, min ton** | **2005-ci ilə nisbətən, faizlə** | **Yük dövriyyəsi, milyon ton-km** | **2005-ci ilə nisbətən, faizlə** |
|---|---|---|---|---|
| 2005 | 128 328 | | 26 534 | |
| 2006 | 145 596 | 113.5 | 43 294 | 163.2 |
| 2007 | 167 533 | 130.6 | 78 007 | 3 d |
| 2008 | 183 093 | 142.7 | 88 607 | 3 d |
| 2009 | 190 372 | 148.3 | 97 704 | 3 d |
| 2010 | 196 266 | 152.9 | 97 466 | 3 d |




Ötən ildə özəl bölmənin nəqliyyat vasitələri ilə yük daşınması 3,6 faiz artmış, bu bölməyə məxsus nəqliyyat vasitələri ilə yük daşınmasının payı nəqliyyat sektorunda 73,9 faiz təşkil etmişdir.

Nəqliyyatçılar 1,4 milyard nəfərə və ya 2009-cu illə müqayisədə 4,5 faiz çox sərnişinə xidmət göstərmişlər. Sərnişinlərin 86,5 faizi avtomobil, 13,1 faizi metro nəqliyyatı ilə daşınmışdır

**Dəmir yolu nəqliyyatı** ilə yük daşınması 2009-cu illə müqayisədə 6,6 faiz artaraq 22,2 milyon ton olmuşdur. İl ərzində orta hesabla sutkada 708 vaqon yüklənmiş, 476 vaqon boşaldılmışdır. Sutka ərzində dəmir yolunun Şimal istiqaməti üzrə 34,1 min ton, Qərb istiqaməti üzrə 3,4 min ton və Cənub istiqamətləri üzrə 3,3 min ton yüklənmə işi yerinə yetirilmişdir. Dəmir yolunda yük dövriyyəsi 3,3 faiz artaraq 8,2 milyard ton-km təşkil etmişdir.

**Dəniz nəqliyyatında** daşınmış yüklərin həcmi 11,2 faiz azalmış və 11,7 milyon ton təşkil etmişdir. Yüklərin üçdə iki hissəsini neft yükləri, üçdə bir hissəsini isə quru yüklər təşkil etmİş və demək olar ki, bütün daşımalar xarici əlaqə üzrə həyata keçirilmişdir. İl ərzində **dəniz limanlarında** 10,8 milyon ton yukləmə-boşaltma işləri həyata keçirilmiş və əvvəlki illə müqayisədə 26,2 faiz artım olmuşdur. İşlənmiş yüklərin 87,8 faizini təşkil edən beynəlxalq tranzit yüklərin həcmi 22,6 faiz. idxal yüklərin həcmi 2,4 dəfə artmış, ixrac yüklərin həcmi isə 22,1 faiz azalmışdır. 2011-ci il yanvarın 1-i vəziyyətinə limanlarda göndərilmək üçün 56,5 min ton və ya əvvəlki illə müqayisədə 3,0 dəfə çox idxal yüklərin qalığı olmuşdur. İl ərzində limana 1183 gəmi daxil olmuş, onların 1011-i boşaldılmış, 173-ü isə yüklənmişdir. Əvvəlki illə müqayisədə boşaldılmış gəmilərin sayı 30,6 faiz artmışdır

**Nəqliyyat sektorunda yük daşınması, min ton**



Nəqliyyatda daha böyük xüsusi çəkiyə malik olmaqla ən sabit sürətlə inkişaf edən sahə **avtomobil nəqliyyatı**dır. İl ərzində ölkədəki mövcud avtonəqliyyat vasitələrinin sayı əvvəlki illə müqayisədə 56,7 min ədəd artaraq 982,6 min ədəd təşkil, etmişdir. Əhalinin hər 1000 nəfərinə düşən avtomobillərin sayı son 5 ildə 1,5 dəfə artaraq 110 ədəd olmuşdur. Avtomobillərin 79,4 faizini minik avtomobilləri, 12,1 faizini yük avtomobilləri, 3,0 faizini avtobuslar, qalan hissəsini isə xüsusi təyinatlı və digər avtomobillər təşkil etmişdir. 2010-cu ildə avtomobil nəqliyyatı ilə fiziki şəxslərin - fərdi sahibkarların fəaliyyəti də nəzərə alınmaqla 99,9 milyon ton yük, 1,2 milyard sərnişin daşınmış və 2009-cu illə müqayisədə müvafiq olaraq 6,0 və 7,7 faiz artmışdır. Sərnişinlərin 96,5 faizi avtobus, 3,5 faizi isə minik taksilərinin ;xidmətlərindən istifadə etmişlər. Avtomobil nəqliyyatı ilə yük və sərnişin dövriyyəsində artım müvafiq olaraq 6.5 və 8,8 faiz təşkil etmişdir.

2010-cu ildə ölkənin avtomobil yollarında 2721 **yol-nəqliyyat hadisəsi** qeydə alınmışdır. Yol-nəqliyyat hadisələrinin sayı ötən illə müqayisədə 2,5 faiz azalmış, baş vermiş qəzalar nəticəsində 3796 şəxs zərər çəkmiş, onların hər dörd nəfərindən biri həlak olmuş, 75,6 faizi isə müxtəlif dərəcəli bədən xəsarəti alaraq yaralanmışdır. Yol-nəqliyyat hadisələrinin sayının azalması ilə yanaşı, həlak olanların sayı da 5 nəfər azalaraq 925 nəfər, yaralananların sayı isə 173 nəfər azalaraq 2871 nəfər olmuşdur. Hər dörd nəfər zərər çəkənlərdən biri qadın olmuşdur.

**Metro nəqliyyatı**nın xidmətlərindən il ərzində İstifadə etmiş sərnişinlərin sayı 181,1 milyon nəfər olaraq 12,1 faiz azalmışdır.

**Hava nəqliyyatı** ilə 1,0 milyon sərnişin daşınmış, daşımanın 78,8 faizi dövlət bölməsinə, 21,2 faizi isə özəl müəssisələrə məxsus hava gəmiləri ilə həyata keçirilmişdir. İl ərzində hava nəqliyyatı ilə 39,5 min ton yük daşınmış, onun 81,3 faizi qeyri-dövlət bölməsinin payına düşmüşdür.

**Magistral neft kəmərləri** ilə 50,0 milyon ton neft nəql edilmişdir. Nəqletmənin 76,6 faizi ölkənin əsas nəqliyyat infrastrukturlarından olan H. Əliyev adına BTC neft ixrac kəməri ilə həyata keçirilmiş və ötən il ərzində bu kəmər vasitəsilə 38,3 milyon ton neft ötürülmüşdür. 2010-cu ilin iyul ayından başlayaraq gəmilər vasitəsilə ölkəyə gətirilərək Səngəçal terminalından BTC kəməri ilə altı ay ərzində 1,3 milyon ton Türkmənistan nefti nəql edilmişdir.

**Magistral qaz kəmərləri** ilə 17,3 milyard kub-metr və ya 7,1 faiz çox qaz nəql edilmişdir. Nəql edilmiş qazın 28,2 faizi Bakı-Tbilisi-Ərzurum Cənubi Qafqaz boru kəməri vasitəsilə həyata keçirilmiş və 4,9 milyard kub-metr qaz ötürülmüşdür.

**"İpək yolu" nəqliyyat dəhlizi**nin Azərbaycana məxsus hissəsində 2010-cu ilin yanvar-noyabr aylarında 47,2 milyon ton və ya 8,8 faiz çox yük, 205,2 milyon nəfər və ya 8,2 faiz çox sərnişin daşınmışdır. Yüklərin 42,5 faizi avtomobil, 39,7 faizi dəmir yolu, 17,8 faizi dəniz nəqliyyatının payına düşmüş, bütün nəqliyyat növlərində, o cümlədən avtomobil nəqliyyatında 8,4 faiz, dəmir yolu nəqliyyatında 6,7 faiz, dəniz nəqliyyatında isə 15,1 faiz artım qeydə alınmışdır.

Yük daşımaları fəaliyyətindən 257,7 milyon manat, sərnişin daşınmasından isə 35,4 milyon manat gəlir əldə olunmuş və əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə müvafiq olaraq 16,0 və 13,1 faiz artmışdır.

2010-cu ilin yanvar-noyabr aylarında nəqliyyat müəssisələrində 76,7 min işçi çalışmış, onların orta aylıq əmək haqqı əvvəlki ilin müvafiq dövrünə nisbətən 5,3 faiz artaraq 371,5 manat təşkil etmişdir.